**Təsdiq edilmişdir:**
**AGF-nın İcra Komitəsinin**
**20.12.2018-cil tarixli Qərarı ilə**

---

# “Azərbaycan Gimnastika Federasiyası” İctimai Birliyinin yığma komandaya cəlb olunan gimnastın təmsil etdiyi klub/idman təşkilatının və şəxsi məşqçisinin mükafatlandırılmasına dair

# Q A Y D A L A R I

**(2019-ci ilin 1 yanvar tarixindən qüvvəyə minir)**

## 1. Ümumi Müddəalar

“Azərbaycan Gimnastika Federasiyası” İctimai Birliyi (bundan sonra AGF adlandırılacaq) İcra Komitəsinin 2018-ci ilin 20 dekabr tarixli qərarına əsasən gimnastikanın 6 yarış növü – kişi idman gimnastikası, qadın idman gimnastikası, bədii gimnastika, batut gimnastikası, akrobatika gimnastikası və aerobika gimnastikası - üzrə yığma komandalara cəlb olunan idmançının təmsil etdiyi klub/idman təşkilatını və şəxsi məşqçisini hazırkı Qaydalarda qeyd olunan şərtlərə müvafiq olaraq mükafatlandırır.

Mükafatın verilməsinin **məqsədi** klub/idman təşkilatı daxilində gimnastika bölməsinin fəaliyyətinin stimullaşdırılması və məşqçisinin əməyinin dəyərləndirilməsindən ibarətdir.

## 2. Mükafatın növü və təqdim olunma qaydası

2.1. Hazırkı qaydalarda qeyd olunan mükafat yığma komandaya cəlb olunmuş hər bir idmançıya görə birdəfəlik verilən pul mükafatıdır. Pul mükafatı gimnastika növləri üzrə yığma komandaya cəlb olunmuş idmançının təmsil etdiyi klub/idman təşkilatına və məşqçisinə aşağıdakı qaydada təqdim olunur:

| | |
|---|---|
| *Klub/idman təşkilatına* | 500 manat |
| *Şəxsi məşqçisinə* | 1000 manat |

2.2. Yuxarıda qeyd olunan mükafatlar yalnız müvafiq gimnastika növü üzrə Beynəlxalq Gimnastika Federasiyasının qaydalarına uyğun olaraq “böyüklər” və “gənclər” kateqoriyasına daxil olan idmançılar AGF-nin tərtib etdiyi və Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təsdiq olunmuş yığma komandaların siyahısına ilk dəfə daxil olunduqda şamil olunur.

2.3. Pul mükafatı Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş klub/idman təşkilatına və şəxsi məşqçiyə, həmin məşqçi AGF tərəfindən keçirilən məşqçilik kurslarından müvəffəqiyyətlə keçib və AGF-nin müvafiq məşqçilik lisenziyasına/kartına sahib olduqda verilir.

2.4. Hazırkı Maddənin 2.2. və 2.3. bəndində qeyd olunan şərtlərlə yanaşı, klub/idman təşkilatının Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçməsi və özü haqda AGF-də müsbət rəy yaratması vacibdir.

2.5. Həm klub/idman təşkilatına, həm də şəxsi məşqçiyə ayrılmış pul mükafatının ödənişi “Nağdsız hesablaşmalar haqqında Azərbaycan Respublikasının Qanunu”na (16 dekabr 2016-cı il) müvafiq olaraq, aidiyyəti klub/idman təşkilatının təqdim etdiyi rəsmi bank hesabına

köçürmə yolu ilə həyata keçirilir. Şəxsi məşqçinin şəxsi hesabına ödəniş məşqçinin istəyi və müvafiq klubun razılığı ilə köçürülə bilər.

2.6. Əgər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən verilən pul mükafatı üzrə hər hansı bir verginin ödənməsi zərurəti yaranarsa, həmin verginin ödənməsi üzrə məsuliyyət mükafatı alan klub/idman təşkilatının, şəxsi məşqçinin hesabına köçürüldükdə, şəxsi məşqçinin üzərinə düşür.

## 3. Klub/idman təşkilatı tərəfindən hesabatın təqdim olunması

3.1. Klub/idman təşkilatı yığma komandaya cəlb olunmuş hər bir idmançıya görə ayrılan pul mükafatı üzrə sözügedən pul mükafatı həmin klub/idman təşkilatının hesabına köçürüldüyü tarixdən hesablanaraq 1 (bir) il ərzində AGF-yə yazılı hesabat təqdim etməlidir.

3.2. Hesabatda klub/idman təşkilatına ayrılmış pul mükafatının sözügedən təşkilat daxilində gimnastika növlərinin inkişafı istiqamətində görüldüyü işlərə necə sərf olunduğu əks olunmalıdır.

3.3. Hazırkı Qaydaların 3.2. bəndində qeyd olunan hesabat hər hansı bir klub/idman cəmiyyəti tərəfindən təqdim olunmadıqda, və ya həmin hesabatda qeyd olunanların həqiqətə uyğun olmadığı aşkarlandıqda, növbəti ildə sözügedən təşkilatın digər gimnastlarının yığma komandaya cəlb olunması zamanı, AGF-nin İcra Komitəsinin qərarı ilə həmin klub pul mükafatından məhrum oluna bilər.

3.4. Hesabat yalnız klub/idman cəmiyyətinə ayrılan pul mükafatı üzrə təqdim olunmalıdır. Şəxsi məşqçiyə ayrılan pul mükafatı üzrə hesabat tələb olunmur.

## 4. Hazırkı Qaydalara dəyişikliklərin edilməsi

Hazırkı Qaydalara hər hansı bir dəyişiklik yalnız AGF-nin İcra Komitəsinin qərarı əsasında edilə bilər.